**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İBTİDAİ SİNİFLƏRDƏ QEYRİ-STANDART DƏRSLƏRDƏN İSTİFADƏ TƏLİMİN KEYFİYYƏTİNİ ARTIRAN VASİTƏ KİMİ

İxtisas: 58.04.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Günel Təbriz qızı İsrafilova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin “İbtidai təhsilin pedaqogikası” kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Pedaqogika elmlər doktoru, professor **Müseyib İbrahim oğlu İlyasov**

Rəsmi opponentlər: Pedaqoji elmlər doktoru, professor **Hikmət Əbdül oğlu Əlizadə**

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent **Aytəkin Telman qızı Məmmədova**

Pedaqogika elmləri doktoru, dosent **Şərafət Aram qızı Baxışova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurası

Dissertasiya Şurasının sədri: tarix elmləri doktoru, professor **Cəfər Məmməd oğlu Cəfərov**

Dissertasiya Şurasının elmi katibi: pedaqogika üzrə fəlsəfə doktoru,dosent **Mələk Əlislam qızı Zamanova**

Elmi seminarın sədri: pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi **Fərrux Abbas oğlu Rüstəmov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan Respublikasında təhsil sahəsində İslahat Proqramı yeni təlim metodlarından, təlim texnologiyalarından istifadənin elmi, pedaqoji-psixoloji əsaslarının işlənilməsini əsas problem kimi qarşıya qoymuşdur.

Azərbaycan Respublikasının Prezidentinin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı haqqında Dövlət Strategiyası"nda qeyd edilir ki, "*Ümumi təhsil pilləsini bitirməsinə baxmayaraq, hesab, oxu və yazı vərdişlərinə malik olmayan çoxlu sayda insan vardır. Həmin səbəbdən təhsilin keyfiyyətinin təminatı başlıca strateji prioritetə çevrilməlidir*".[1]

İbtidai siniflərdə təlimin təkmilləşdirilməsi müasir təhsilin ən vacib problemlərindən biridir. Bu siniflərdə təlim prosesinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün əsas amillərdən biri şagirdlərin imkan və qabiliyyətlərini nəzərə almaqla onlarda yüksək təlim marağının təmin olunmasıdır. Təlim zamanı marağın təmin olunması hətta təlimdə geri qalan şagirdləri də fəal işə cəlb edir. Bunlar isə təlim keyfiyyətinin yüksəlməsinə bilavasitə öz təsirini göstərir.

Şagirdin şəxsiyyətinin inkişafı vasitələrinin axtarışı pedaqoqları psixoloji nəzəriyyəyə müraciət etməyə sövq etmiş, təhsil prosesində fəaliyyət göstərən psixoloji mexanizmləri, o cümlədən, onun əsaslandırılmasını, məktəblilərin arzu və tələbatlarını bilməyi zəruri etmişdir. Bu zərurətdən irəli gələn Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası – Milli Kurikulumunun tətbiqi Azərbaycanda təhsilin keyfiyyətcə yeni mərhələyə keçməsini təmin etmişdir.

Azərbaycan Respublikası Təhsil Qanununda deyilir: "*İbtidai təhsilin məqsədi təhsilalanlara oxumaq, yazmaq və hesablama bacarıqları aşılamaq, onlarda insan, cəmiyyət və təbiət haqqında*

---

[1] Azərbaycan Respublikasında təhsilin inkişafı haqqında Dövlət Strategiyası. Bakı: Kurikulum, 2013. №4, s.103-113.

*ilkin həyati biliklər, məntiqi təfəkkür elementləri, estetik, bədii zövq və digər xüsusiyyətlər formalaşdırmaqdan ibarətdir*". [2]

İbtidai siniflərdə təlim prosesi şagirdləri proqram materiallarını dərindən mənimsəməyə və eyni zamanda hər bir şagirdin fərdi bacarıqlarını və imkanlarını nəzərə alaraq onların inkişafını təmin etməyə səbəb olmalıdır. Bunun reallaşdırılması yolları və üsulları əhəmiyyətli dərəcədə yeniləşdirilməli, yaradıcı, eyni zamanda səmərəli olmalıdır. Bu prosesdə qeyri-standart dərslərdən yaradıcı şəkildə istifadə edilməsi olduqca mühüm əhəmiyyət daşıyır və geniş imkanlara malik olması ilə səciyyələnir.

Qeyri-standart dərslər qeyri-adi şəraitdə keçilir. Belə bir dəyişiklik məqsədəuyğundur, çünki belə dərslər adi şəraitdə keçilən dərs zamanı şagirdlərdə səhv etmək qorxusu yaradan psixoloji gərginliyi azaldır. Bu baxımdan qeyri-standart dərslər imkanlarına və yerinə yetirdiyi funksiyaya görə xüsusi əhəmiyyət daşıyır.

İbtidai siniflərdə fənlərin tədrisinə qeyri-standart yanaşma şagirdlərin inkişafına kömək edir, onlara analiz və sintez əqli mühakimə üsullarını öyrədir, fənnə daha dərin maraq formalaşmasına imkan verir, şagirdlərə müstəqil şəkildə öz biliklərini genişləndirməyə şərait yaradır. Şagirdlər böyük həvəslə daha çox oxuyur, öz fikirlərini deməkdən qormurlar və öz cavablarını "Mən düşünürəm ki, ...", "Mən fikirləşirəm ki, ...", Məncə ..." sözləri ilə başlayırlar.

Qeyri-standart dərslər şəxsiyyətin inkişafı üçün böyük əhəmiyyət kəsb edir və belə təşkil olunmuş dərslərdə şagirdlərdə tədqiqatçılıq qabiliyyətləri formalaşır, zəif şagirdlər də bu prosesdə çox fəal olurlar.

Görkəmli rus pedaqoqu İ.P.Podlasıy yazır: "*Kiçikyaşlı məktəblilər ilk vaxtlar məktəbə gələndə qarşılaşdıqları yeniliklərə, qazandıqları biliklərə sevinirlər, bu isə onlarda maraq yaradır. Amma zaman keçdikcə onların bir hissəsi bu biliklərdən "yorulurlar". Nəticədə təlimə maraq azalır və adi "3"-lə oxuyan şagirdlər çoxluğu*

---

[2] Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu // – Bakı: Hüquq ədəbiyyatı, –2009, – 79 s.

*yaranır. Bu halın olmaması üçün tədris prosesində əyləncəliyi artırmaq lazımdır*". [3]

Əlbəttə bu "əyləncəlilik" təlim xarakterli olmalıdır ki, bunu qeyri-standart dərslər daha çox təmin edə bilir. Bu gün bir sıra ibtidai sinif müəllimləri öz pedaqoji fəaliyyətində təlimin qeyri-ənənəvi formalarından istifadə edirlər. Bunlar müəllimin yeni pedaqoji təfəkkürü ilə bağlıdır. Müasir ibtidai sinif müəlliminin ehtiyatında olan dərs formaların bir qismi tədris materialının təqdim olunmasının qeyri-adi, oyun formaları kimi görünən dərslərdən istifadəyə doğru dəyişir. Belə dərslərdə müəllim imkanı daxilində şagirdlərdə maraq yaratmağa çalışır və bu zaman şagird vaxtını nə parta arxasında kitab oxumaqla, nə də kitabxanada deyil, kompüter arxasında və ya fəal "oyunçu" mövqeyinde keçirir.

Hal-hazırda ünsiyyət qurmaq bacarığı böyüməkdə olan nəslin uğurları və sonrakı fəaliyyəti üçün vacib faktordur. Kommunikativ dialoq və modelləşdirmə qabiliyyəti gələcəyin insanı üçün vacib bacarıqdır. Bu istiqamətdə də qeyri-standart dərslərin geniş imkanları vardır.

İbtidai siniflərdə fəndən asılı olmayaraq, onun keyfiyyətli tədris edilməsi üçün şagirdləri fəallaşdıran, dialoqa, əməkdaşlığa, qarşılıqlı ünsiyyətə cəlb edən, onların tədris materialına müstəqil yiyələnmələrinə imkan yaradan metodlar və texnologiyalar xüsusi əhəmiyyət kəsb edir. Bununla bağlı yenilikçi müəllimlər tədris prosesində şagirdlərin müstəqilliyini təmin edən qeyri-standart dərslərdən yaradıcı şəkildə istifadə edirlər. Belə dərslərdə hər bir şagirdin öz mülahizəsini söyləmək imkanı olur, onlar sinif yoldaşlarının suallarının və ya cavablarının müzakirəsində iştirak edə bilir və özləri də suallar verir, sualları cavablandırırlar.

Hazırda böyüməkdə olan nəslin təlim-tərbiyəsində köhnə ənənələr öz tətbiqini itirməkdədir. Qabaqcıl müəllimlər arasında yaradıcı müəllimlərin sayı artmaqdadır. Onlar şagirdlərdə marağı, yaradıcılığı, müstəqilliyi və fəallığı formalaşdıran yeni metodlardan və

---

[3] Подласый И.П. Как подготовить эффективный урок. Книга для учителя. Киев: Радянска школа, 1989. 126 с.

təlim formalarından, o cümlədən qeyri-standart dərslərdən istifadəyə üstünlük verirlər.

"Qeyri-standart dərs" pedaqoji termin kimi tədris materialının mənimsənilməsi üçün müəllim və şagirdlərin fəal ünsiyyəti və əməkdaşlığını təmin edən eyni tipdə olmayan bütün dərsləri özünə daxil edir. Bu dərslər şagirdlərin təfəkkürünün inkişaf etdirilməsi, onların dərsdə fəallığının təmin edilməsi və təlim keyfiyyətinin yüksəldilməsi istiqamətində aparılan yaradıcı axtarışların nəticəsində çox da uzun bir vaxtı əhatə etməyən dövrdə yaranmış və özünə müəyyən dərəcədə "vətandaşlıq hüququ" qazanmışdır.

Tədrisin keyfiyyətinin artırılması və şagirdlərin təlim marağının inkişaf etdirilməsi istiqamətində axtarışlar həmişə olmuşdur.

XX əsrin sonlarında psixoloji-pedaqoji elmlərdə aşağıda qeyd olunan istiqamətlər yarandı: kiçik yaşlı məktəblilərin təlimi və inkişafı (L.V.Zankov); nəzəri təfəkkürün inkişafı (V.V.Davıdov, D.V.Elkonin), əqli fəaliyyətin formalaşdırılması (P.Y.Qalperin, N.F.Talızina), idrak marağının formalaşdırılması (Q.İ.Şukina), yeni təlim metodları (V.F.Şatalov, İ.Y.Lerner), inteqrativ və differensial təlim (M.A.Mençinskaya, Q.S.Kostyuk), ibtidai sinif şagirdlərinin idrak fəallığının inkişafı (Ş.A.Amonaşvili), təlimin optimallaşdırılması (Y.K.Babanski), məktəbdə təlimə sistemli yanaşmanın əsas prinsipləri (M.N.Skatkin, V.V.Davıdov, M.İ.Maxmutov və başqaları). Bu alimlər dərsin tədqiq edilməsinin psixoloji-pedaqoji və didaktik problemlərinə müəyyən qədər öz töhfələrini vermişlər.

Pedaqoji tədqiqatların təhlili göstərir ki, təlim prosesində qeyri-standart dərslər probleminə maraq təxminən son 20 ildə müşahidə olunur ki, pedaqoqlar və psixoloqlar ona xüsusi diqqət yetirirlər.

Qeyri-standart dərslərə fəal tədris formalarından biri kimi baxılır. Bu, tədrisin effektivliyinin yüksəldilməsinə, müxtəlif tədris vasitələrindən və metodlarından istifadə etməklə bütün tədris prinsiplərini təcrübədə birləşdirmək və həyata keçirmək cəhdidir. Şagirdlər üçün qeyri-standart dərs – başqa bir psixoloji vəziyyətə keçməkdir, bu başqa öyrənmə üslubu, müsbət emosiyalar, özünü yeni qismdə görmək - yəni, yeni vəzifə və məsuliyyət deməkdir. Bu cür dərs – şagirdlərin öz yaradıcılıq imkanlarını və şəxsi keyfiyyətlərini inkişaf

etdirmək, elmlərin rolunu qiymətləndirmək və onların təcrübədə tətbiq edilməsini görmək, müxtəlif elmlərin qarşılıqlı əlaqəsini duymaq imkanıdır, bu müstəqillik və öz əməyinə tamam başqa bir münasibətdir. Bu baxımdan qeyri-standart dərslər şagirdlərin şəxsi keyfiyyətlərinin formalaşdırılmasına və biliklərin daha dərindən mənimsənilməsinə əlverişli şərait yaradır.

Təlim nəzəriyyəsində qeyri-standart dərslərin növləri və xüsusi əlamətləri haqqında hələ ki, vahid fikir yoxdur. Bu problemilə bağlı bir sıra dissertasiya səviyyəsində tədqiqatlar aparılsa da, yenə də qeyri-standart dərs fenomeninin nəzəri təhlilə ehtiyacı vardır.

L.N.Sokolova rus dili və ədəbiyyatı dərslərində yuxarı sinif şagirdlərinin idrak müstəqilliyinin formalaşdırılmasında qeyri-standart dərslər vasitə kimi olduğu, D.Q.Qulomnabiyev şagirdlərin şəxsiyyətinin formalaşdırılması üçün coğrafiyadan qeyri-standart dərslərin pedaqoji şərtləri, B.Zoolişoyeva kiçikyaşlı məktəblilərin sistemli təfəkkür elementlərinin formalaşdırılmasında qeyri-standart dərslərin nəzəri-prosessual aspektlərini, N.Q.Praşkoviç ümumtəhsil məktəblərində qeyri-standart dərslərin təşkil edilməsi haqqında, İ.B.Əliyev ibtidai siniflərin riyaziyyat kursunda didaktik oyunlar, əyləncəli və məntiqi çalışmalar təlimin səmərəsi və keyfiyyətinin yüksəldilməsi vasitəsi kimi, Z.V.Bayramova didaktik oyunlar kiçik yaşlı məktəblilərin mənəvi tərbiyəsinin vasitəsi kimi, Ə.H.Musayev ibtidai siniflərdə riyaziyyatdan didaktik oyunlar və əyləncəli çalışmaların şagirdlərin təlim fəallığının artırılması vasitəsi olduğu haqqında tədqiqatlar aparmışlar.

Bizim tədqiqata yaxın olan bu dissertasiyaların təhlili göstərir ki, bunlarda bir çox dəyərli fikirlər, faydalı təkliflər olsa da ibtidai siniflərdə təlim keyfiyyətinin yüksəldilməsində qeyri-standart dərslərdən istifadə edilməsinin səmərəli metodları və yolları tam tədqiq olunmayıbdır.

İbtidai siniflərdə təlim keyfiyyətinin yüksəldilməsində qeyri-standart dərslərdən bir vasitə kimi istifadə edilməsi imkanlarının tədqiqata cəlb edilməsi məhz zəruriyyətdən yaranmışdır.

Tədqiqatımız göstərir ki, təlim keyfiyyətinin artırılması yollarından ən səmərəliləri şagirdlərin idrak fəallığının yüksəldilməsi, id-

rak maraqlarının tərbiyə edilməsi, tədqiqatçılıq fəaliyyətinin formalaşdırılması, kommunikativ bacarıqlarının inkişaf etdirilməsidir. Bütün bunları nəzərə alaraq tədqiqatımızda ümumtəhsil məktəblərinin ibtidai siniflərində müasir təlim yanaşmalarını əks etdirən qeyri-standart dərslərdən istifadə etməklə ibtidai sinif şagirdlərinin idrak fəallığının yüksəldilməsi, idrak maraqlarının tərbiyə edilməsi, tədqiqatçılıq fəaliyyətinin formalaşdırılması, kommunikativ bacarıqlarının inkişaf etdirilməsi üçün pedaqoji şərtləri, səmərəli yolları müəyyənləşdirməyi və əsaslandırmağı, tədris prosesində onların reallaşdırılması yollarını işləyib hazırlamağı qarşımıza məqsəd qoymuşuq.

Bu məqsədlə tədqiqatımızda qeyri-standart dərs tiplərindən olan dərslər-oyunlardan, dərslər-ekskursiyalardan, kompüter-dərslərdən, dərslər – tədqiqat oyunlardan, dərslər-süjetli-rollu oyunlardan istifadə etmiş və onları nəzəri cəhətdən əsaslandırmağa çalışmışıq.

**Tədqiqatın obyekti** ibtidai siniflərdə təlim prosesidir.

**Tədqiqatın predmetini** ümumtəhsil məktəblərinin ibtidai siniflərində qeyri-standart dərslərdən istifadə təlim keyfiyyətini artıran vasitə kimi araşdırılması və əsaslandırılması təşkil edir

**Tədqiqatın məqsədi** ibtidai siniflərdə təlim keyfiyyətinin yüksəldilməsi üçün qeyri-standart dərslərdən istifadə edilməsinin mahiyyətini açmaq və yerini müəyyən etmək, tədris prosesində onların reallaşdırılmasının səmərəli yollarını işləyib hazırlamaqdan ibarətdir.

**Tədqiqatın vəzifələri:**

– elmi-pedaqoji və metodiki ədəbiyyatda qeyri-standart dərs anlayışının mahiyyətini aşkar etmək;

– qeyri-standart dərslərin təsnifatını araşdırmaq;

– problem baxımından elmi-pedaqoji ədəbiyyatı təhlil etmək və problemin həlli vəziyyətini öyrənmək;

– ibtidai siniflərdə tətbiq olunan qeyri-standart dərslərin spesifik xüsusiyyətlərini və onlara verilən tələbləri müəyyənləşdirmək;

– ibtidai sinif şagirdlərinin idrak fəallığının yüksəldilməsində qeyri-standart dərslərin rolunu araşdırmaq;

– ibtidai sinif şagirdlərinin idrak fəallığını yüksəldən, idrak maraqlarını tərbiyə edən, tədqiqatçılıq fəaliyyətini formalaşdıran, kom-

munikativ bacarıqlarını inkişaf etdirirən vasitə kimi qeyri-standart dərslərin tətbiqi texnologiyalarını işləyib hazırlamaq;

– qeyri-standart dərslərin ibtidai siniflərdə təlim keyfiyyətinin yüksəldilməsində (ibtidai siniflərin riyaziyyat fənninin materialları əsasında) bir vasitə olmasının səmərəliliyini yoxlamaqdan ötrü pedaqoji eksperiment keçirmək.

**Tədqiqat metodları:** təhlil, müşahidə, müsahibə, anketləşdirmə, modelləşdirmə, pedaqoji eksperiment, riyazi-statistik metodlar.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

– Qeyri-standart dərslər ibtidai siniflərdə təlimin keyfiyyətini artıran əsas amildir və şagirdlərin təlimə motivasiyasını stimullaşdıran vasitədir.

– İbtidai siniflərin təlimində qeyri-standart dərslərin müxtəlif növlərindən və üsullarından səmərəli istifadə edilməsi şagirdlərin idrak fəallığını təmin etdirməklə təlim keyfiyyətini yüksəldir, şagirdlərdə təlim maraqlarını və motivlərini inkişaf etdirir.

– Dərslər-ekskursiyalardan və süjetli-rollu oyunlardan və digər bir sıra qeyri-standart dərs formalarından səmərəli istifadə şagirdlərin idrak marağını artırır; kommunikativ bacarıqları inkişaf edir, tədqiqatçılıq qabiliyyəti formalaşır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatda ibtidai siniflərdə təlim keyfiyyətinin yüksəldilməsi amili kimi qeyri-standart dərslərin yeri, rolu və tətbiqi texnologiyaları işlənmiş, tədris prosesində qeyri-standart dərslərdən səmərəli istifadənin şagirdlərin təlim marağının və motivlərinin yüksəldilməsi vasitəsi olduğu əsaslandırılmış və qeyri-standart dərslərin şagirdlərdə təfəkkür və təxəyyül proseslərinin inkişaf etdirilməsinin optimal metodları müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** İbtidai siniflərin təlimində şagirdlərin idrak fəallığının inkişaf etdirilməsi üçün qeyri-standart dərslərin rolunun və əhəmiyyətinin aşkar edilməsi, didaktik imkanlarının müəyyənləşdirilməsi və onların tətbiqi istiqamətində irəli sürürlən fikirlər, elmi müddəalar və çıxarılan nəticələr bu sahədə pedaqogika elminin zənginləşməsinə əhəmiyyətli dərəcədə kömək

edəcək və qeyri-standart dərslərin tətbiqinin elmi əsaslarını müəyyənləşdirməyə səbəb olacaqdır.

**Tədqiqatın praktik əhəmiyyəti.** İbtidai siniflərin təlimində şagirdlərin idrak fəallığının inkişaf etdirilməsi üçün qeyri-standart dərslərin keçirilməsinin yeni və müasir metodları işlənmişdir. Bunlardan dərsliklərin, metodik vəsaitlərin və proqramların hazırlanmasında, həmçinin praktik müəllimlərin fəaliyyətində geniş şəkildə istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas ideyaları, nəticələri respublika və beynəlxalq konfranslarda məruzələr və çıxışlar şəklində müzakirə edilmiş, elmi-metodik jurnallarda məqalə şəklində çap olunmuşdur. Apardığımız tədqiqatla bağlı 1 dərs vəsaiti, 1 tədris vəsaiti, 10 elmi məqalə (biri xarici ölkədə), 6 tezis (dördü beynəlxalq) çap olunmuş və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin "İbtidai təhsilin pedaqogikası" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, 2 fəsil, 8 paraqraf, nəticə və istifadə edilmiş 160 adda ədəbiyyat siyahısından ibarətdir. İşin ümumi həcmi 218989 işarə, 160 səhifəni (giriş 17343 işarə, 10 səhifə, I fəsil 98996 işarə, 60 səhifə, II fəsil 98963 işarə, 72 səhifə, nəticə 3687 işarə, 2 səhifə, istifadə edilmiş ədəbiyyat siyahısı 14 səhifə) əhatə edir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Girişdə tədqiqatın aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, elmi yeniliyi, tədqiqatın nəticələrinin nəzəri və praktiki əhəmiyyəti göstərilmiş, müdafiəyə çıxarılan müddəalar irəli sürülmüşdür.

I fəsil "İbtidai siniflərdə qeyri-standart dərslərin tətbiqi pedaqoji problem kimi" adlanır. Bu fəsil dörd paraqrafdan ibarətdir. Birinci paraqraf "Qeyri-standart dərslərin mahiyyəti, məzmunu və tipləri" adlanır. Burada qeyri-standart dərs formalarına iki əsas yanaşma

ayırd edilir:

1. Qeyri-standart və ya qeyri-ənənəvi dərs formalarına birinci yanaşma kombinəedilmiş kənarlaşmanın dəqiq strukturundan uzaqlaşma və cürbəcür metodik priyomların birləşməsi kimi.

2. İkinci yanaşma qeyri-standart dərsləri son zamanlar meydana gəlmiş və müasir məktəbdə geniş tətbiq olunan innovativ, müasir dərs formaları kimi təfsir edir (konfrans dərslər, dəyirmi masa dərsləri, auksion dərslər, diskussiya dərsləri və s.).

Aparılmış psixoloji-pedaqoji tədqiqatların təhlili göstərmişdir ki, pedaqogikada qeyri-standart dərsi müəyyən edən terminlə bağlı vahid fikir mövcud deyil. İ.Y.Lerner "digər ümumi qəbul olunmuş formalar", V.İ.Zaqvyazinskiy "təhsil işinin ən müxtəlif formaları", Q.K.Selevko "texnologiya", N.Y.Şurkova "sərbəst dərs" S.V.Kulneviç və T.P.Lakotsenina "bir qədər qeyri-adi dərs", "tamamilə qeyri-adi dərs" "alternativ dərslər", V.M.Bukatov və A.P.Yerşova isə "darıxdıcı olmayan dərslər", O.V.Trofimova "qeyri-ənənəvi dərslər" adlandırmışdır.

Terminologiyada vahid fikrin olmaması dərsin keçirilməsinin nəzəriyyəsinə və praktikasına qarışıqlıq gətirir.

Müəllif "qeyri-standart dərs" anlayışının mahiyyəti ilə bağlı apardığı psixoloji-pedaqoji tədqiqatların təhlilinə əsasən aşağıdakı nəticəyə gəlmişdir:

1. "Qeyri-standart dərs" termininin istifadəsi daha əlverişli görünür. Belə dərslər təşkilati formasında dəyişiklik edilən dərslərdir. Bu dəyişikliklər oyun, yarış əsaslı hər hansı məşğələ və iş formasını təqlid edən fantaziyaya əsaslanır.

2. Qeyri-standart dərs daha çevik struktur, şablonların olmaması, problemli situasiyaların olması ilə fərqlənir. Qeyri-standart dərsin məzmunu, bir qayda olaraq, adət olunmuş məktəb fənlərinin çərçivəsindən kənara çıxmır. Bu cür dərsdə aparıcı dərs fəaliyyəti ilə yanaşı, müxtəlif fəaliyyət növləri də istifadə olunur: tədqiqat, diskussiya, yaradıcılıq, oyun və s.

3. Qeyri-ənənəvi dərs formalarına verilən təriflər onun qeyri-standart dərslərlə sinonim kimi istifadə olunduğunu, hətta ona yaxın mənada istifadə olunduğunu göstərir.

4. Qeyri-standart dərslər özünün funksiyası, mahiyyəti, məzmunu və təşkili formasına görə müəllimləri və şagirdləri yaradıcılığa stimullaşdırmaq imkanına malikdir.

İ.P.Podlasının "Pedaqogika" adlı dərs vəsaitində 36 tip qeyri-standart dərs tipləri ayırd edilir, Ə.Paşayev və F.Rüstəmovun birgə yazdıqları dərs vəsaitində qeyri-standart dərslərin ən çox yayılmış 19 tipi göstərilir.

"Qeyri-standart dərs" anlayışına İ.P.Podlasıy belə tərif verir: "*Qeyri-standart dərslər strukturu olmayan improvizə edilmiş tədris məşgələləridir*".[4]

İ.Rüstəmova və S.Xudiyeva isə qeyri-standart dərslərə belə tərif verirlər: "*Qeyri-standart dərslər təşkilati formasında dəyişiklik edilən dərslərdir. Bu dəyişikliklər oyun, yarış əsaslı hər hansı məşğələ və iş formasını təqlid edən fantaziyaya əsaslanır*".[5]

T.A.Stefanovskayanın təklif etdiyi tipologiyanın əsasını, müəllifin sözlərinə əsasən, "*qeyri-standart dərsin keçirilmə forması təşkil edir. Bunlar yarışma və oyun formasında olan dərslər (yarış, rollu oyunlar); ictimai ünsiyyət formasında olan dərslər (mətbuat konfransı, auksion); ictimai-mədəni tədbirləri imitasiya edən dərslər (qiyabi ekskursiya, ədəbiyyat otağı); fantaziyaya əsaslanan dərslər (nağıl dərs); digər təşkilati strukturlarla kombinəolunmuş dərslər (məsləhət dərsi, seminar dərsi); ənənəvi sinifdən kənar iş formalarının (ŞHK, "yaxşı bilənlər klubu") dərsdə keçirilməsi və s.*".[6]

Standart dərslə qeyri-standart dərsin müqayisəsi cədvəl şəklində göstərilmişdir:

---

[4] Подласый И.П. Педагогика: Новый курс: Учеб.для студентов пед.вузов: [в 2 томах]. Москва: Владос, т. 1. 1999. 576 с.

[5] Xudiyeva S. Qeyri-ənənəvi dərslər təlimin təşkilinə yaradıcı yanaşmanın nəticəsidir. Bakı: Kurikulum, 2011. №4, s. 98-99; Rüstəmova İ. Qeyri-standart dərslərin təşkili. Bakı: Kurikulum, 2012. №2, s. 82-83.

[6] Стефановская Т.А. Педагогика: наука и искусство. Курс лекций. Учебное пособие для студентов, преподавателей, аспирантов. / Москва: Совершенство, 1998. 368 с.

**Cədvəl 1.1.**
**Standart dərslə qeyri-standart dərsin müqayisəsi**

| Meyarlar | Standart dərs | Qeyri-standart dərs |
|---|---|---|
| Aparıcı məqsəd | Didaktik (öyrədici) | İnkişafetdirici, tərbiyəvi |
| Dərsin strukturu | Standart, ciddi | Fərdi, sərbəst |
| Meyarlar | Standart dərs | Qeyri-standart dərs |
| Müəllim-şagird qarşılıqlı əlaqəsi | Müəllim – bilik mənbəyi, dərs fəaliyyətinin rəhbəridir; şagird – passiv dinləyicidir | Müəllim – müxtəlif fəaliyyət növlərini idarə edən məsləhətçidir; şagird – tərəfdaş və həmfikirdir |
| Tədris vasitələri və metodları | İzah edici – illüstrativ (informasiya – reseptiv); reproduktiv | problemli ifadə, qismən axtarış, evristik söhbət, tədqiqat metodları |
| Dərsin məzmun dolğunluğu | Mono fənli | Polifənli (poli – yunanca, “çox”) |
| İnformasiya mənbələri | Əsasən müəllim sözü, dərslik | Müxtəlif informasiya mənbələri: dərs vəsaitləri, kitab və jurnallar, İnternet, şagirdin özü |
| Təlimin fərdiləşdirmə və diferensiallaşdırılma səviyyəsi | Aşağı: “orta” şagirdə yönəlmə | Yüksək: hər bir şagirdin fərdi xüsusiyyətləri nəzərə alınır |
| Şagirdin dərs zamanı fəaliyyət növləri | Reproduktiv (təkraredici) fəaliyyət: alqoritm, şablon və s. üzrə hərəkət etmə | Məhsuldar (yaradıcı) fəaliyyət: problemli məsələlərin həlli, müstəqil işləmə və s. |
| Şagird motivasiyası | Aşağı | Yüksək |
| Sinifdə hökm sürən abı-hava | Avtoritar; emosional gərginlik, yüksək təşviş | Demokratik, dostcasına; emosional komfort, müvəffəqiyyətə köklənmə |
| Səmərəlilik | Yeni materialı izah etmək, bilik və bacarıqları formalaşdırmaq üçün səmərəlidir. | İdrak müstəqilliyini inkişaf etdirmək üçün səmərəlidir. |

Pedaqoji ədəbiyyatın təhlili göstərmişdir ki, 100-ə yaxın qeyri-standart dərs tipini qeyd etmək olar.

Müəllif bunları ümumiləşdirərək bu tiplərdən daha geniş yayılmış qeyri-standart dərs tiplərini aşağıdakı sxem şəklində göstərmişdir:




**Sxem 1.1. Qeyri-standart dərslərin tipləri**

I fəslin ikinci paraqrafında problemlə bağlı elmi-pedaqoji ədəbiyyat təhlil edilmişdir. Bu paraqrafda xarici ölkələrin alimlərindən D.Q.Qulomnabiyevin, B.Zoolişoyevanın, L.N.Sokolovanın, N.Q.Praşkoviçin, S.V.Kulneviçin, T.P.Lakotseninanın, İ.P.Podlasıyın, T.A.Stefanovskayanın, A.V.Xutorskoyun, respublikamızın tədqiqatçılarından İ.Əliyevin, Ə.Musayevin, Z.Bayramovanın, S.R.Bədiyevin, S.L.Axundovanın və başqalarının qeyri-standart dərslər haqqındakı ideyaları və fikirləri müqayisəli şəkildə təhlil edilmişdir.

Müəllif belə bir nəticəyə gəlmişdir ki, bu tədqiqatlarda ayrı-ayrılıqda qeyri-standart dərslərə aid nümunələr göstərilsə də, bu tipli dərslərin əhəmiyyətindən danışılsa da, onların pedaqoji əsaslarının nələrdən ibarət olması və ibtidai siniflərdə təlimin keyfiyyətinin artı-

rılması üçün qeyri-standart dərslərin tətbiqi texnologiyaları, demək olar ki, tam həllini tapmamışdır.

I fəslin üçüncü paraqrafı ibtidai siniflərdə tətbiq olunan qeyri-standart dərslərin spesifik xüsusiyyətləri və belə dərslərə verilən tələblərə həsr olunmuşdur.

Bu paraqrafda qeyri-standart dərslərdə müəllim şagirdlərin idrakının inkişaf etdirilməsi və təlim məqsədlərinə nail olmaq üçün 6 didaktik prinsip və bu prinsiplərdən doğan 8 didaktik tələb müəyyənləşdirilmişdir. Qeyri-standart dərslərin bəzilərininin (dərs-səyahət, dərslər-mətbuat konfransı, dərs-yarış, "Şən Hazırcavablar Klubu" tipli dərslər, hərrac dərsi, nağıl-dərslər və s.) məzmunu qısa şəkildə nəzərdən keçirilmişdir.

Müəllif apardığı pedaqoji tədqiqatlar nəticəsində qeyri-standart dərslərin keçirilməsi üçün müəllimlərin aşağıdakı tövsiyyələri nəzərə almalarını məqbul hesab edir:

1. Qeyri-standart dərslərdən həm yeni mövzunun tədrisində, həm də şagirdlərin bilik, bacarıq və vərdişlərini ümumiləşdirərkən və möhkəmləndirərkən yekun dərs kimi istifadə edilməlidir;

2. Tədris prosesinin bu cür təşkil edilmə formalarına çox tez-tez müraciət etmək məqsədəuyğun deyil, çünki bu tədris edilən fənnə və tədris prosesinə davamlı marağın itirilməsinə səbəb ola bilər;

3. Qeyri-ənənəvi bir dərsdən əvvəl hərtərəfli hazırlıq və birinci növbədə konkret təlim və tərbiyə məqsədlərinin sisteminin işlənib hazırlanması lazımdır;

4. Qeyri-ənənəvi dərslərin formalarında seçim edərkən müəllim öz xarakter və temperament xüsusiyyətlərini, hazırlıq səviyyəsini və bütövlükdə sinifin və ayrı-ayrı şagirdlərin spesifik xüsusiyyətlərini nəzərə almalıdır;

5. Qeyri-standart dərslər keçirərkən, şagirdlərin xeyirxahlıq, yaradıcılıq və sevinc mühitində tərbiyə etməyi əsas hədəflərdən biri kimi qoymaqla "uşaqlarla və uşaqlar üçün" prinsipini rəhbər tutmaq.

I fəslin dördüncü paraqrafında ibtidai sinif şagirdlərinin idrak fəallığının yüksəldilməsində qeyri-standart dərslərin rolu araşdırılmış və belə bir nəticəyə gəlinmişdir ki, qeyri-standart dərslər idrak fəallığının inkişaf edə bilməsi üçün xüsusi şərait yaradır.

Bu paraqrafda şagirdlərin idrak fəallığının yüksəlməsinə yönəlmiş qeyri-standart dərs planının tərtib olunmasının 11 mərhələsi şərh edilmişdir. Bu mərhələlər aşağıdakılardır:

1. Qeyri-standart dərsin planı.
2. Qeyri-standart dərsin aktuallaşdırılması.
3. Dərsin mənasının müəyyən olunması.
4. Qeyri-standart dərslərin təşkil olunmasına qoyulan şərtlər və tələblər.
5. Təşkil etmə.
6. Vəzifə bölgüsü.
7. Dərsin ssenarisinin işlənib hazırlanması.
8. Tapşırıqların seçilməsi.
9. Fərdi və qrup şəklində iş.
10. Dərsdə qiymətləndirmə metodikası.
11. Qeyri-standart dərs konspektinin (planının) yazılması (nümunəvi struktur).

Beləliklə, apardığımız tədqiqat işinin nəticəsi göstərir ki:

1. İbtidai siniflərdə qeyri-standart dərslərdən istifadə öyrənilən materialı şagirdlərin yaş xüsusiyyətlərinə uyğunlaşdırmağa, onların idrak fəallığının inkişaf etdirilməsinə və əldə etdiyi bilikləri həyatda tətbiq etməsinə yardım edir və dünyagörüşünü genişləndirir. Qeyri-standart dərs daha çevik struktur, şablonların olmaması, problemli situasiyaların olması ilə fərqlənir.

2. Qeyri-standart dərslər idrak fəallığının inkişaf edə bilməsi üçün xüsusi şərait yaradır. Bu şəraitin mahiyyəti “eyni səviyyədə” ünsiyyət saxlamaqdan ibarətdir ki, bu zaman cəsarətsizlik aradan qalxır, “mən də bacararam” hissi yaranır, yəni bu cür dərslərdə daxilən azadlığa çıxmaq duyğusu meydana gəlir.

3. Qeyri-standart dərsə hazırlıq və onun aparılması zamanı şagirdlər çox vaxt qruplara ayrılır və ya fərdi tapşırıqlar alır ki, bu da “müəllim-şagird” və “şagird-şagird” sistemində dəyişikliklərə aparır. Bu cür dərsdə aparıcı, dərs fəaliyyəti ilə yanaşı müxtəlif fəaliyyət növləri də istifadə olunur: tədqiqat, diskussiya, yaradıcılıq, oyun və s.

4. Qeyri-standart dərsdə daha çox bilik mənbəyi istifadə oluna bilər: müəllim, dərs vəsaitləri, kitablar, jurnallar, İnternet, eləcə də

şagirdin özü. Öyrənənlər problemli məsələlərin həlli yollarını və variantlarını müstəqil şəkildə axtarır. Belə dərsin müəyyənedici cəhətlərindən biri də şagirdlərdə intellektual hisslərin (maraq, təəccüb, şübhə) yaranması, təşəbbüskarlığın meydana gəlməsi, kollektiv idrak fəaliyyətində iştirak etmək cəhdi və s. inkişafını hesab etmək olar.

5. Qeyri-standart dərslərin tətbiqi – təhsil üçün güclü stimul və güclü motivasiyadır. Bu cür dərslər vasitəsi ilə dərketmə prosesinin oyanması daha fəal və tez baş verir, qismən də ona görə ki, ibtidai sinif şagirdi təbiəti etibarilə oynamağı sevir, digər səbəb isə adi dərs fəaliyyətindən fərqli olaraq oyunda motivlərin daha çox olması ilə əlaqədardır.

II fəsil "İbtidai siniflərdə təlimin keyfiyyətinin artırılmasında qeyri-standart dərslərdən istifadə edilməsinin texnologiyaları" adlanır və 4 paraqrafdan ibarətdir.

İkinci fəslin 1-ci paraqrafı "İbtidai siniflərdə təlimin keyfiyyətinin yüksəldilməsində dərslər-oyunların və dərslər-ekskursiyaların tətbiqi texnologiyaları" adlanır. Bu paraqrafda dərslər-oyunları və dərslər-ekskursiyaları ibtidai sinif şagirdlərinin idrak fəallığını inkişaf etdirməsi və tərbiyəvi mahiyyəti baxımından nəzərdən keçirilmişdir. Qeyri-standart dərslərin özünə dərsin təşkilinin müasir iş formalarını daxil etməsi haqqında sxem verilmişdir.




**Sxem 2.1. Qeyri-standart dərsin təşkili formaları**

Bu paraqrafda müəllim tərəfindən həyata keçirilən oyun fəaliyyətinin vəzifələri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

– oyunda uşaqların kommunikativ keyfiyyətlərinin inkişafı;

– yaradıcı fəaliyyətin əsası kimi təxəyyülün inkişafı;

– uşaqlarda yaddaşın, diqqətin və nitqin inkişafı;

– oyunda qeyri-standart təfəkkürün inkişafı;

– dərs prosesində kollektiv və fərdi oyunların təşkili, yaradıcı oyun məşğələlərinin keçirilməsi;

– oyun fəaliyyətinin məqsəd və vəzifələrindən asılı olaraq, uşaqlar üçün oyunun təşkilinə normativ tələbləri kimi prinsipləri qeyd etmək. Prinsiplərin xarakteri ümumi göstəriş, qayda və norma şəklində ifadə olunur.

Oyun fəaliyyətinin təşkili üçün əhəmiyyətli və aktual olan aşağıdakı prinsiplər müəyyənləşdirilmişdir:

– fəallıq – oyun fəaliyyətinin əsas prinsipidir. Fəallıq oyuna hazırlıqdan başlayaraq, oyun prosesində və onun nəticələrinin müzakirəsində fiziki, intellektual güclərin aktiv təzahürünü ifadə edir.

– oyunun aşkar və əlverişli olması arzu edənlərin sərbəst iştirakını ifadə edir və istənilən oyun sadə və aydın olmalıdır;

– oyunun hərəkətli olması və oyunda vaxt amilinin təsiri əhəmiyyətliliyi ifadə edir;

– oyunun əyaniliyi göstərir ki, bütün oyun hərəkətləri real və real olmayan (kino, teatr, kompüter oyunları) hallarda aşkar olmalıdır, bu isə şagirdlərin idrak marağını gücləndirir;

– oyunun əyləncəliyi və emosionallığı oyun fəaliyyətinin maraqlı olmasını təmin edir, bu isə şagirdlərin idrak marağını kifayət qədər gücləndirir;

– fərdiləşdirmə prinsipi oyuna son dərəcə şəxsi münasibəti əks etdirir, burada şəxsi keyfiyyətlər inkişaf edir və oyunçunun özünü ifadə etməsi, özünü təsdiq etməsi üçün imkan olur;

– kollektivçilik oyuna qarşlıqlı əlaqəli və qarşlıqlı asılılıqlı birgə xarakteri əks etdirir, yoldaşlıq qarşılıqlı münasibətləri inkişaf etdirir, birgə düşünməyi və fəaliyyəti öyrədir;

– oyunçunun məqsədyönlülüyü oyunçu və onun rəqibi üçün vəhdəti əks etdirir; şəxsi məqsədlər komandanın ümumi məqsədləri ilə üst-üstə düşməlidir;

– oyunçunun oyunda müstəqilliyi və özfəaliyyəti əsas prinsiplərdən biridir;

– oyunda yarışın və müsabiqənin olması. Yarışsız oyun yoxdur. Bu prinsipin qiymətli olması aydındır, çünki o fəal müstəqil fəaliyyətə sövq edir, fiziki və intellektual gücləri səfərbər edir;

– nəticəlilik oyun hərəkətlərinin nəticəsini başa düşməyi, oyunçunun və komandanın məhsuldar yaradıcı fəaliyyətini əks etdirir;

– oyunun doğruluğu və təkrarlığı şagirdlərin demək olar ki, hamısının real rolları olduğunda özünü göstərir. Bu onlara keçmişi təkrar etməyə və müəyyən gələcək "aşkar etməyə" imkan verir. Ona görə də oyun proqnozlaşdırma üçün güclü vasitədir;

– oyunda problemlilik prinsipi təfəkkürün intellektual-emosional yarışda məntiqi-psixoloji qanunauyğunluqlarını ifadə edir;

– oyun üçün sadə halda olan informasiya oyunçulara qələbə və ya məglubiyyəti gözləyəndə güclü səmimi həyəcan yaradır və sairə.

Ekskursiya fəaliyyətindəki əsas priyomlar aşağıdakı kimi müəyyənləşdirilmişdir:

1. İllüstrativ-düşündürücü.
2. Reproduktiv.
3. Qismən araşdırma.
4. Tədqiqat.

Şagirdlərin mövcud biliklərinin genişləndirilməsi, onların idrak fəaliyyətinin stimullaşdırılması ekskursiyaların birinci dərəcəli vəzifəsidir. Emosional təsir imkanlarının gücündən istifadə etmək, məntiqi və emosional başlanğıcları birləşdirmək, idrak fəaliyyətinin hərtərəfli inkişafı və auditoriyanın özfəaliyyətinin təşkili üçün tarix və müasirliyin tərbiyəvi potensialından geniş istifadə etməklə elmi və estetik maariflənmə sisteminin qurulması məhz ekskursiyalarda mümkündür.

Müəllif ekskursiyanın səciyyəvi xüsusiyyətlərinə aşağıdakıları aid edir:

a) məkanda hərəkət etmək yolu ilə şagirdlər tərəfindən biliklərin sürətlə mənimsənilməsi;

b) obyektin ekskursiya üçün yararlılığı;

c) ətraf aləmin sintetik formada, əsasən təhlil etmə yolu ilə öyrənilməsi üsulu;

d) predmet əsasında öyrənmə üsulu;

e) emosionallıq.

Ekskursiyanın uğuru faktların savadlı seçimindən olduğu qədər, bələdçidən (müəllimdən) də asılıdır.

Müəllif istənilən bələdçi üçün fəaliyyətində riayət etməli bir sıra qaydaları müəyyənləşdirmişdir.

Bu paraqrafda "Disneylend"ə səyahət oyun-dərs, "Qədim Azərbaycan" mövzusunda bir ekskursiya–dərs və s. dərs nümunələri şərh olunmuşdur.

Belə bir nəticəyə gəlinmişdir ki, ekskursiya müşahidə olunan obyektin zahiri görünüşünə baxmaqla, dəqiqliklə qavramaq bacarığını; mülahizə yürütmə zirəkliyini; təşəbbüskarlıq və öyrənmək həvəsini; hadisələri qabaqcadan bilmək və konstruksiyalaşdırma təxəyyülünün fəaliyyətini sürətləndirmək məharətini inkişaf etdirir; həmçinin incə və həssas diqqətin inkişaf etdirilməsinə vəsilə olur.

II fəslin "İbtidai siniflərdə təlimin keyfiyyətinin yüksəldilməsində kompüter–dərslərin və dərslər – tədqiqat oyunların tətbiqi texnologiyaları" adlanan ikinci paraqrafında kompüter–dərsləri və dərslər–tədqiqat oyunları ibtidai sinif şagirdlərinin idrak maraqlarının tərbiyə edilməsi və tədqiqatçılıq fəaliyyətini formalaşdırmaq baxımından nəzərdən keçirilmişdir.

İbtidai siniflərdə təhsilin keyfiyyətinə təsir edən əsas amil dərslərin aparılma texnologiyası və metodikasının düzgün müəyyənləşdirilməsidir. İKT-nin tədrisdə tətbiqi, yeni təhsil texnologiyalarının yaranması təhsilin keyfiyyətinin təminatına yeni imkanlar yaradır.

Uşaqlar tərəfindən kompüterdən istifadə vasitələrinin uğurlu mənimsənilməsi onların öz şəxsi multimedia məhsullarının yaradılmasına yol açaraq qoyulan hədəflərin yerinə yetirilməsinə maksimum dərəcədə yaxınlaşmağa kömək edir. Belə ki, şagirdlərdə müstəqil olaraq onları maraqlandıran problemlərin təhlili, fərdi işinin icra-

sına yaradıcı yanaşmaq və fərziyyə yürütmək imkanı yaranır. Eyni zamanda, ibtidai sinif şagirdləri mətnləri çap etməyi, müxtəlif şriftlərdən istifadəni, qrafik dizayn etməyi öyrənir. Bütün bunlar onlar üçün şəxsi məna kəsb etməyə başlayır.

Müasir məktəblər uşağın şəxsi fəaliyyətə qoşulmasının təmin edilməsi üçün müəyyən qədər kompüter imkanları ilə təchiz edilmişdir: tədris proqramları, interaktiv elmi oyunların istifadəsi, testlərin hazırlanması, informatika dərslərinin kompüterlər vasitəsilə tədrisi və s. Hazırda əksər məktəblərimizdə aşağı siniflərdə demək olar ki, heç bir dərs təqdimatsız keçilmir. Sözsüz ki bu ibtidai sinif şagirdlərinin inkişafına müsbət təsir edir: onların dünyagörüşü genişlənir, erudisiyası artır, uşaqlar təbiət və cəmiyyət haqqında yeni biliklər əldə edir, məlumat axınını idarə etməyi öyrənir, onların tədqiqat bacarıqlarının inkişafına kömək edən şəxsi fəaliyyətə qoşulur.

Müəllif kompüterin ibtidai sinif şagirdi üçün lazımsız oyuncaq olmaması, onun istifadəsinin tədqiqat bacarıqlarının inkişafına yardım etməsi üçün kompüter təlim sistemlərinə şamil olunan və onun effektivliyini təmin edən aşağıdakı tələbləri qeyd edir:

1) kompüterdən istifadənin dəqiq və sistematik təşkili labüddür;

2) uşaqların kompüterdə yerinə yetirdiyi tapşırıqlar özündə əsas vacib aspektləri ehtiva etməli və şagirdi hadisələri təhlil etmək, oxşarlıqlar müəyyən etmək, hər hansı əlamətə əsasən faktları, onun xüsusiyyətlərini və s. aydınlaşdırmağa yönəltməlidir;

3) tədris materialının seçimi zamanı əsas didaktik prinsiplərə (sistematiklik və davamlılıq, mövcudluq, elmilik və s.) əməl olunmalıdır;

4) kompüterin idarəsi olduqca sadə olmalı və uşaqları tapşırığın icrasından yayındırmamalıdır.

Müəllif tədqiqat-oyunlarla bağlı qeyd edir ki, əldə olunmuş məlumatı təhlil etmək və ümumiləşdirmək lazımdır. Bu məqsədlə toplanmış bütün məlumatların olduğu kağızları masaya düzmək lazımdır. Onlar hər bir məktəblinin görəcəyi şəkildə qoyulmalıdır. Bundan sonra məktəblilərin yeni nələr öyrəndiyini müəyyənləşdirmək, toplanmış məlumatın hansı nəticəyə gəlməyə imkan verdiyini, aparılmış tədqiqa-

tın nəticələrinə əsasən nə danışa biləcəklərini düşünmək lazımdır. Tədqiqatın nəticələrinin ümumiləşdirilməsi prosesində kiçik məktəblilərdə düşüncə və yaradıcılıq qabiliyyətinin inkişafı baş verir, onlar əsas və ikinci dərəcəli fikirləri fərqləndirməyi öyrənir, anlayışların tərifini verməyə çalışır. Bu iş zehni mürəkkəbliyinə görə əsl alimlərin işindən fərqlənmir. Fərqli olan yalnız faktların "yenilik" dərəcəsidir.

Müəllif qeyd edir ki, şagirdlər bütün mümkün üsullarla aşağıdakıların müəyyən olunacağı tədqiqatı aparırlar:

1) əsas anlayışlara tərif vermək;
2) əsas əşyaları, prosesləri, hal və hadisələri təsnifləşdirmək;
3) qarşılaşdıqları bütün təzadları müəyyənləşdirmək və işarə etmək;
4) təşbeh və müqayisələr seçmək;
5) mühakimə və nəticələri formalaşdırmaq;
6) nəticə çıxarmaq;
7) tədqiqat mövzusunun mümkün olan gələcək araşdırma yollarını göstərmək;
8) çıxışın mətnini hazırlamaq;
9) tədqiqatın nəticələrinin illüstrasiyaları üçün sxemlər, maketlər, çertyojlar hazırlamaq.

II fəslin üçüncü paraqrafında süjetli rollu oyunlar ibtidai sinif şagirdlərinin kommunikativ bacarıqlarının və idraki proseslərin inkişafı baxımından şərh edilmişdir.

Qeyri-standart dərslərin mühüm növlərindən olan süjetli-rollu oyunların 4 funksional xüsusiyyəti müəyyənləşdirilmişdir:

1. Bu oyunun funksiyası ondan ibarətdir ki, uşaqlara emosional cəhətdən cəlbedici mövqe tutmağa və daxil olduqları real vəziyyətin icrasını asanlaşdırmağa imkan verir.

2. Uşaqların süjetli-rollu oyunlardakı ünsiyyəti təbiidir. Rəhbərlik və bir-birinə tabe olmaq heç bir məcburiyyət olmadan baş tutur. Uşaqlar oyundakı münasibət növlərini real həyatlarına daşıyırlar.

3. Süjetli-rollu oyunların mütəmadi dəyişkən mühiti iştirakçılardan öz qabiliyyətlərinin və əvvəllər yaranmış vərdişlərinin nümayişini tələb edir. Bu isə, şəxsi keyfiyyət və vərdişlərin mükəmməlləşməsinə və onların real, həyati fəaliyyətə yaxınlaşmasına imkan yaradır.

4. Qaydalara əsasən, rollu oyunlarda tapşırığın və ya rolun sona çatdırılması üçün iradə nümayiş etdirmək lazımdır, əks təqdirdə uduzmaq olar. Oyuna aludə olmuş uşaq burada özünü hər hansı digər fəaliyyətindən fərqli olaraq tam bütövlüyü ilə nümayiş etdirdiyi üçün, bu, mütəşəkkilliyin inkişafına da səbəb olur.

II fəslin dördüncü paraqrafı pedaqoji eksperimentin təşkilinə, keçirilməsinə və yekunlarına həsr edilmişdir.

Pedaqoji eksperiment 3 mərhələdə aparılmışdır: I mərhələ (müəyyənedici mərhələ), II mərhələ (öyrədici mərhələ), III mərhələ (yoxlayıcı mərhələ).

Eksperimental siniflərdə iş bizim tərtib və təklif etdiyimiz plan üzrə aparılmışdır. Kontrol qruplarda isə şagirdlərin tədris fəaliyyətlərinə müdaxilə edilməmiş, proses əvvəlki qayda ilə davam etdirilmişdir.

**Cədvəl 2.4.5.**

**Bakı şəhəri 44 №li, 115 №li, 151 №li və Quba şəhəri 1 №li tam orta məktəblərdə eksperimentin ilkin yoxlama nəticələri**

| Məktəb | Siniflər | Şagird. sayı | Qiymətlər | | | | Müvəffəqiyyət %-i | Keyfiyyət %-i | Ədədi orta qiymət |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | 5 | 4 | 3 | 2 | | | |
| Bakı şəhəri 44№li tam orta məktəb | Eksp. | 90 | 9 | 24 | 37 | 20 | 77,7% | 36,6% | 3,24 |
| | Kont. | 86 | 10 | 24 | 33 | 19 | 77,9% | 39,5% | 3,29 |
| Bakı şəhəri 115 №li tam orta məktəb | Eksp. | 105 | 15 | 31 | 36 | 23 | 78% | 43,8% | 3,36 |
| | Kont. | 104 | 13 | 32 | 38 | 21 | 79,8% | 43,2% | 3,35 |
| Bakı şəhəri 151№li tam orta məktəb | Eksp. | 104 | 12 | 27 | 41 | 24 | 76,9 | 37,5% | 3,25 |
| | Kont. | 99 | 12 | 26 | 38 | 23 | 76,7% | 38,3% | 3,27 |
| Quba şəhəri 1 №li tam orta məktəb | Eksp. | 107 | 11 | 27 | 40 | 29 | 72,8% | 35,5% | 3,18 |
| | Kont. | 99 | 12 | 26 | 34 | 27 | 72,7% | 38,3% | 3,23 |




**Qrafik 2.4.1. İlkin yoxlama üzrə ədədi orta qiymət nəticələri**

**Cədvəl 2.4.20.**

**Bakı şəhəri 44 №li, 115 №li, 151 №li və Quba şəhəri 1 №li tam orta məktəblərdə eksperimentin 3-cü yoxlama nəticələri**

| Məktəb | Siniflər | Şagird. sayı | Qiymətlər | | | | Müvəffəqiyyət %-i | Keyfiyyət %-i | Ədədi orta qiymət |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | 5 | 4 | 3 | 2 | | | |
| Bakı şəhəri 44№li tam orta məktəb | Eksp. | 90 | 23 | 39 | 21 | 7 | 92,2% | 68,8% | 3,86 |
| | Kont. | 86 | 12 | 29 | 28 | 17 | 80,2% | 47,6% | 3,41 |
| Bakı şəhəri 115 №li tam orta məktəb | Eksp. | 105 | 36 | 41 | 21 | 7 | 93,3% | 73,3% | 4 |
| | Kont. | 104 | 17 | 36 | 33 | 18 | 82,6% | 50,9% | 3,5 |
| Bakı şəhəri 151№li tam orta məktəb | Eksp. | 104 | 30 | 45 | 21 | 8 | 92,3% | 72,1% | 3,93 |
| | Kont. | 99 | 18 | 32 | 31 | 18 | 81,8% | 50,5% | 3,5 |
| Quba şəhəri 1 №li tam orta məktəb | Eksp. | 107 | 26 | 46 | 26 | 9 | 91,5% | 67,2% | 3,83 |
| | Kont. | 99 | 13 | 34 | 29 | 23 | 76,7% | 47,4% | 3,37 |




**Qrafik 2.4.4. 3-cü yoxlama üzrə ədədi orta qiymət nəticələri**

İlkin yoxlama və 3-cü yoxlama nəticələrini müqayisə etməklə müvəffəqiyyət göstəricisinin 14,5-18,7% arası, keyfiyyət göstəricisinin isə 29,5-32,2% arası artmasını müəyyən etdik.

Apardığımız nəzəri və eksperimental tədqiqatlardan əldə olunmuş məlumatları ümümləşdirərək və yekunlaşdıraraq aşağıdakı nəticələri əldə etmişik.

# NƏTİCƏLƏR

Apardığımız nəzəri tədqiqatlardan və pedaqoji eksperimentdən aşağıdakı nəticələr alınmışdır:

1. Tədqiqat işində sistemli olaraq ibtidai siniflərdə şagirdlərin idrak fəaliyyətinin fəallığının inkişafı üçün qeyri-standart dərslərin tətbiqinin səmərəli yolları nəzəri və praktik cəhətdən işlənərək belə bir nəticəyə gəlinmiştir ki, ibtidai siniflərdə təlim prosesində qeyri-standart dərslərdən planlı və mütəşəkkil surətdə istifadə edilməsi şagirdlərin təlimə marağını artırmaqla həm də təlim prosesinin keyfiyyətinin yüksəldilməsinə əsaslı surətdə təsir göstərir.

2. Qeyri-standart dərslərin keçirilməsi zamanı fəal təlim metodlarından, şagirdlərin idrak fəallığını inkişaf etdirən üsullardan və stimullardan səmərəli istifadə olunması şagirdlərin kommunikativ bacarıqlarını inkişaf etdirir, onlarda tədqiqatçılıq qabiliyyəti formalaşır, bunun nəticəsində isə ibtidai siniflərdə təlimin keyfiyyəti artır.

3. İbtidai siniflərdə tətbiq olunan qeyri-standart dərs formalarının müxtəlifliyi onlarda təlimin onun müxtəlif mərhələlərində istifadə edilməsi dərslərdə şagirdlərin müəllimlə əməkdaşlığına, dərslərdə fəal olmalarına əsaslı surətdə təsir edir.

4. Qeyri-adi şəraitdə keçilən qeyri-standart dərslər adi şəraitdə keçilən dərslərdən fərqli olaraq şagirdlərdə səhv etmək qorxusu yaradan psixoloji gərginliyi azaldır, onlarda özünə inamı artırır və şagirdlərin həm də bir-birləri ilə əməkdaşlıq etmələrinə şərait yaradır.

5. İbtidai siniflərin təlimində qeyri-standart dərslərin müxtəlif növlərindən və şagirdlərin yaş və bilik səviyyələrinə uyğun idrak fəallığını inkişaf etdirən fəallaşdırıcı üsullardan və stimullar yaradan tərzlərdən (priyomlardan) səmərəli istifadə edilməsi şagirdlərin idrak fəallığını inkişaf etdirir. Bu məqsədlə dərslər-ekskursiyalardan və süjetli-rollu oyunlardan səmərəli istifadə olunduqda, şagirdlərin idrak marağı artır; kommunikativ bacarıqları təlim motivləri inkişaf edir, tədqiqatçılıq meyilləri güclənir.

6. Qeyri-standart dərslərin təlim keyfiyyətini yüksəldən amil kimi inkişafetdirici mahiyyətə malik olması:

1) dərsin təşkilində standartdan, ətalətdən və rəsmiyyətçilikdən imtina etmə;

2) sinfin şagirdlərini dərsdə maksimal fəal fəaliyyətə cəlb etmə;

3) dərsin emosional tonunun əsası olaraq əyləncə deyil, maraq və həvəsi göstərmə;

4) fikirlərin alternativliliyinin, çoxluluğunun dəstəklənməsi;

5) dərsdə ünsiyyət funksiyasının inkişafı, fəaliyyətə sövq etmə, emosional məmnunluğu duymanı təmin etmə və;

6) qiymətdən formalaşdırıcı (yalnız yekunlaşdırıcı alət kimi deyil) kimi istifadə edilməsi – kimi prinsiplərin müəllim tərəfindən gözlənilməsindən çox asılıdır;

7. Qeyri-standart dərslərin keçirilməsinə hazırlaşarkən və onların keçilməsi zamanı:

1) qeyri-standart dərslərdən həm yeni mövzunun tədrisində, həm də şagirdlərin biliklərinin, bacarıq və vərdişlərinin ümumiləşdirilməsi və möhkəmləndirilməsi zamanı istifadə edilməsi;

2) Fənnə və təlimə dayanıqlı marağın azalmasına səbəb olmaması üçün qeyri-standart dərs formalarına tez-tez müraciət edilməsi;

3) qeyri-standart dərsdən əvvəl birinci növbədə təlim və tərbiyənin konkret məqsədləri sisteminin hazırlanması;

4) qeyri-standart dərs formasını seçərkən sinfin və ayrı-ayrı şagirdlərin hazırlıq səviyyəsinin və spesifik xüsusiyyətlərinin nəzərə alınması;

5) qeyri-standart dərslərin keçirilməsi zamanı müəllimin "uşaqlarla və uşaqlar üçün" prinsipini rəhbər tutması, şagirdlərin xeyirxahlıq, yaradıcılıq, sevinc mühitində tərbiyə olunması məqsədlərinin gözlənilməsi kimi tələblərində müəllim tərəfindən nəzərə alınması olduqca vacibdir.

Qeyri-standart dərslərin keçirilməsi üçün aşağıdakı təklif və tövsiyyələrin nəzərə alınmasını zəruri hesab edirik:

1. İbtidai siniflərdə təlim keyfiyyətinin yüksəldilməsində əsas vasitələrdən biri olduğunu nəzərə alaraq şagirdlərin yaş və bilik səviyyələrinə müvafiq qeyri-standart dərslərin tədrisi metodikasına aid dərs vəsaitlərinin və metodik göstərişlərin hazırlanması.

2. Qeyri-standart dərslərin ibtidai sinif şagirdlərinin intellektual, idrakı və emosional inkişafları ilə əlaqələndirilməklə onların potensial imkanlarının üzə çıxarılmasına və şəxsiyyət kimi inkişaflarına istiqamətləndirilməsi.

**Dissertasiya işi üzrə aşağıdakı elmi əsərlər çap edilmişdir:**


1. Kazımov Z.F., İsrafilova G.T. Riyaziyyat və Məntiq (I sinif). Tədris vəsaiti. Bakı: ADPU, 2017. 101 s.
2. İsrafilova G.T. Qeyri-standart dərslər ibtidai siniflərdə təlimin keyfiyyətini artıran vasitə kimi. Naxçıvan: Elmi əsərlər. Humanitar Elmlər Seriyası, 2017. II cild, № 5(86), s. 108-110.
3. İsrafilova G.T. Qeyri-standart dərslərin spesifik xüsusiyyətləri və strukturu. Doktarantlarının və gənc tədqiqatçıların XXI Respublika elmi konfrans, Bakı, 24 oktyabr – 25 oktyabr, 2017, s. 229-231.
4. İsrafilova G.T. I sinifdə riyaziyyat dərslərində didaktik oyunlardan istifadə. Bakı: Elmi əsərlər. Azərbaycan Respublikasının Təhsil İnstitutu, 2018. cild 85, № 3, s. 113-116.
5. İsrafilova G.T. Riyazi oyunlar və əyləncəli çalışmaların didaktik funksiyaları. Bakı: Elmi əsərlər. Azərbaycan Respublikasının Təhsil İnstitutu, 2018. cild 85, № 8, s. 152-155.
6. İsrafilova G.T. Riyazi oyunların didaktik funksiyaları. İnnovasiya, təhsilin keyfiyyəti və inkişaf. IV Beynəlxalq elmi konfrans, Bakı: 20-21 dekabr, 2018, s. 156.
7. İsrafilova G.T. İbtidai sinif şagirdlərinin idraki maraqlarının inkişaf etdirilməsi haqqında. Bakı: Elmi əsərlər. Bakı Qızlar Universiteti, 2019. Cild 10(38), №2, s. 246-249.
8. İsrafilova G.T. İbtidai siniflərin təlimində oyun fəaliyyətinin təşkilinin məqsədi, vəzifələri və prinsipləri. Gəncə: Elmi xəbərlər. Fundamental, Humanitar və Təbiət Elmlər Seriyası, 2020. №2, s. 228-231.
9. Kazımov Z.F., İsrafilova G.T. Riyaziyyat təlimində inkişafetdirici çalışmalardan istifadə yolları (I-IV siniflər). Dərs vəsaiti. Bakı: ADPU, 2020. s. 111.
10. Israfilova G.T. The essence of the concept of non-standard forms of elementaryeducation in the learning process. II İnternational

Ankara Conference of Scientific Research, Ankara, 6 march-8 march, 2020, s. 6-11.

11. Исрафилова Г.Т. О сущности понятия «нестандартный урок. Россия, Тольятти: Азимут научных иследований: педагогика и психология, 2020. Том 9, с. 145-149.

12. İsrafilova G.T. Qeyri standart dərslərin mahiyyəti. 3rd international november 24 head teacher education and innovative sciences symposium, Bakı, 24 may – 25 may, 2021, s. 212-220.

13. İsrafilova G.T. Qeyri-standart dərslərin xüsusiyyətləri. Bakı, Elmi-metodik jurnal. Kurikulum, Aprel-iyun, 2021. Cild 14 (54), №2, s. 51-53.

14. İsrafilova G.T. İbtidai siniflərdə təlimin keyfiyyətinin yüksəldilməsində dərslər-süjetli rollu oyunların tətbiqi texnologiyaları. Bakı: Pedaqogika, psixologiya elmləri üzrə elmi-nəzəri metodik jurnal, 2022, s. 57-64.

15. İsrafilova G.T. İbtidai siniflərdə təlim keyfiyyətini yüksəldən qeyri-standart dərslər haqqında. Bakı: Elmi əsərlər. Bakı Qızlar universiteti, 2022. Cild 13(51), N3, s. 131-134.

16. İsrafilova G.T. Didactic games in primary classes. Tokyo 7th international innovative studies & contemporary scientific research congress, Tokyo / Japan, 1-23 April, 2023, s. 663-665

17. İsrafilova G.T. İbtidai siniflərdə təlim keyfiyyətini yüksəldən qeyri-standart dərslər haqqında. "Təhsildə inkişaf mərhələləri: rəqəmsallaşdirma və gələcək perspektivlər" mövzusunda I Respublika elmi konfransı, Naxçıvan, 4-5 may, 2023, s. 183-185.

18. İsrafilova G.T. İbtidai siniflərin riyaziyyat dərslərində qeyri-standart çalışmaların həlli yolları haqqında. Bakı: Elmi əsərlər. Azərbaycan Respublikasının Təhsil İnstitutu, 2024. cild 91, № 4, s. 97-100.

Dissertasiyanın müdafiəsi "29" oktyabr 2024-cü il tarixdə saat $14^{00}$-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1000, Bakı şəhəri, Ü.Hacıbəyli küç. 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya mərkəzində tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir

Avtoreferat "29" sentyabr 2024-cü iltarixdə zəruri ünvanlara göndərilmişdir

Çapa imzalanıb:  28.09.2024

Kağızın formatı: A5

Həcm: 36713
Tiraj: 100